# MÜCAHİDİ-MİLLƏT HƏSƏN BƏYİN RUHUNA İTHAF

*Ey toxmpaşi-məzrəeyi-elmü mərifət!*
*Oldun qəriqi-mövceyi-ənvari-məğfirət.*
*Bir heykəli-mücəssəm idin, ey vücudi-pak,*
*Şol məsləki-bülənd ilə oldun dəfini-xak.*
*Əlayi-şani-qövm idi əqsayi-məqsədin,*
*Ləbrizi-rəhmət olsun o pakizə mərqədin!*
*Fəal bir "Əkinçi" idin, ey ədib sən,*
*İlahi-kəştzar idi mətlubin, ey Həsən.*

*Baği-fənadə toxmi-bəqa əkmisən, düha!*
*İfayi-xidmət etmisən, ey piri-canfəda!*
*Nəşri-maarifə nə böyük xidmət eylədin.*
*Tövsii-saheyi-ədəbə qeyrət elədin.*
*Cəhd eylədin izaləyə afati-milləti,*
*Əfsus, görmədin ki, mükafati-xidməti!*
*Ey məşəli-təyəqqüzü iqad edən ədib,*
*Tarix namın ilə edər iktisabi-zib.*

*Aldın şu nuri qoynuna, ey sayeyi-ədəm,*
*Vurdun qülubi-ümmətə min zəxmi-pürələm.*
*Qıldı üful dəhrdən ol nuri-intibah,*
*Xaki-siyah içində doğub şimdi bir səbah.*
*Ey tirə xak içində təvəttün edən həvam!*
*Sizlər də eyləyin şu gözəl pirə ehtiram.*
*Tiği-təhəssür ilə dili zəxmdardır,*
*Rəncidə qılmayın onu, pək ixtiyardır.*
*Cismin qocaltdı görmək üçün gənc ümmətin,*
*Girdi məzarə görmədi məsud millətin.*
*Tabavəri-təhəmmül olub çox müsibətə,*
*Tabü təvanı qalmayıb artıq əziyyətə.*
*Azürdə etdi xəlq onu, siz şəfqət eyləyin,*

*Cismi-nəzarinə baxınız, hörmət eyləyin!*
*Ol zat kim, qünudeyi-xaki-məzardır,*
*"Va ümmətа!..." sədası ilə naləkardır.*
*Ey tirə xak içində təvəttün edən həvam,*
*Sizlər də eyləyin şu gözəl pirə ehtiram!*
*Çeşmanına toxunmayın, ol intizardır,*
*Amalının hüsuluna həp didədardır.*
*Fikrin kimi münəvvər ola mərqədin sənin,*
*Millətdən özgə olmadı bir məqsədin sənin.*

*"Tazə həyat" qəzeti, №195, 197; 14, 17 dekabr 1907-ci il*